# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/41** **27 dekabr 2017-ci il**

**Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin tərcüməsi və nəşri üzrə redaksiya heyətinin yaradılması barədə**

Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) tərcümə strategiyasının tələblərinə müvafiq olaraq və Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 2.1-ci "Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin tərcüməsi və redaktəsi" bəndinin və həmin bəndin icrası ilə əlaqədar tərtib olunmuş plan-proqramın 2-ci "Redaksiya heyətinin yaradılması" bəndinin icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin tərcüməsi və nəşrini təmin etmək məqsədilə aşağıdakı tərkibdə redaksiya heyəti yaradılsın

***Redaksiya heyətinin sədri***

Vahid Novruzov – Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor

***Redaksiya heyətinin katibi***

Nəcəf Talıbov – Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri

***Redaksiya heyətinin üzvləri***

Anar Hacızadə – "Prime Audit and Consulting" MMC-nin idarəedici partnyoru

Camal Həsənov – "Deloitte and Touche" MMC-nin audit və əminlik üzrə direktoru

Fəxri Mustafayev – "PraysVoterhausKupers" MMC-nin icraedici direktoru, audit rəhbəri

İlqar Vəliyev – "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru

Maarif Abbasov – Palatanın Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi

Namiq Abbaslı – “ANR Audit” MMC-nin direktoru, auditor

Üzeyir Fətiyev – Palatanın şurası yanında Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri, sərbəst auditor

Vəli Rəhimov – Palatanın Maliyyə və təsərrüfat idarəsinin rəisi

Ziya Məmmədov – “KPMG Audit Azərbaycan” MMC-nin audit üzrə baş meneceri

2. Redaksiya heyətinə tapşırılsın ki, Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin tərcüməsinin peşə redaktəsini və korrektəsini müvafiq plan-proqramda nəzərdə tutulmuş müddətdə həyata keçirməklə Beynəlxalq Audit Standartlarının 2018-ci ilin oktyabr-noyabr aylarında nəşrini təmin etsinlər.

3. Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu sərəncamın Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**SƏDR** **V.NOVRUZOV**